**AZƏRBAYCAN RESPUBLİKASI**
**AUDİTORLAR PALATASI SƏDRİNİN**
**SƏRƏNCAMI**

**Bakı şəhəri** **№ 1/17** **22 sentyabr 2014-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının müvafiq struktur bölmələrinin rəhbərlərinin və Palata Şurası yanında Komitələrin fəaliyyətlərinin əlaqələndirilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2013-cü il 27 avqust tarixli 244/2 saylı qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən Komitələrin işinin yenidən qurulması haqqında» və 2014-cü il 10 sentyabr tarixli 254/1 saylı qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında yeni Komitələrin yaradılması haqqında» qərarlarına uyğun olaraq təşkil edilmiş Komitələrin işlərinin səmərəli aparılmasını, onların auditor fəaliyyətinin idarə olunması, tənzimlənməsi və auditin inkişafının sürətləndirilməsi üzrə Komitələrin Əsasnamələrində nəzərdə tutulmuş vəzifə və funksiyalarının uğurla həyata keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

I. Auditorlar Palatasının müvafiq struktur bölmələrinin rəhbərlərinin Palata Şurası yanında yaradılmış Komitələrin fəaliyyətinə köməklik göstərilməsi məqsədi ilə aşağıdakı təhkimçilik bölgüsü təsdiq edilsin:

1. Keyfiyyətə Nəzarət Komitəsi üzrə Abbasov Maarif Qurban oğlu – Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi
2. Auditorların Peşə Etikası Komitəsi üzrə Abbasov Maarif Qurban oğlu – Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi
3. Metodik Komitə üzrə Talıbov Nəcəf Musa oğlu – Sədrin elmi-metodik məsələlər üzrə müşaviri
4. Auditorların İxtisasartırma Komitəsi üzrə Gülməmmədov Səbuhi Yediyar oğlu – Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsinin rəisi
5. Qanunvericilik və hüquqi məsələlər Komitəsi üzrə Talıbov Nəcəf Musa oğlu – Sədrin elmi-metodik məsələlər üzrə müşaviri

6. Beynəlxalq Standartlar Komitəsi üzrə Rəhimov Vəli Rəhim oğlu – Maliyyə və təsərrüfat idarəsinin rəisi
7. Mübahisə və Apellyasiyalar Komitəsi üzrə Bayramov Qəşəm Hacalı oğlu – Aparatın rəhbəri
8. İnformasiya və mətbuat Komitəsi üzrə Məmmədzadə Samir Məmmədbağır oğlu – Sədrin müşaviri
9. Dövlət orqanları və ictimaiətlə əlaqələr Komitəsi üzrə Bayramov Qəşəm Hacalı oğlu – Aparatın rəhbəri
10. Beynəlxalq əlaqələr Komitəsi üzrə Məmmədzadə Samir Məmmədbağır oğlu – Sədrin müşaviri
11. Milli auditə dəstək Komitəsi üzrə Hacıyev Mübariz Şirəli oğlu – Auditin təşkili və tənzimlənməsi idarəsinin rəisi
12. Gənclərlə iş Komitəsi üzrə Gülməmmədov Səbuhi Yediyar oğlu – Kadr hazırlığı və beynəlxalq əlaqələr idarəsinin rəisi
13. Üzvlük məsələləri Komitəsi üzrə Rəhimov Vəli Rəhim oğlu – Maliyyə və təsərrüfat idarəsinin rəisi

II. Auditorlar Palatasının struktur bölmələrin rəhbərlərinə tapşırılsın:

a) müvafiq Komitələr ilə birlikdə onların Əsasnamələrinin vaxtında hazırlanmasını təmin etsinlər;

b) müvafiq Komitələrin Əsasnamələrində nəzərdə tutulmuş vəzifə və funksiyaların yerinə yetirilməsində mütəmadi əməli köməklik göstərilməsini təmin etsinlər.

III. Sərəncamın icrasına nəzarəti öz üzərimə götürürəm.

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri** **V. NOVRUZOV**